Kredo.-2019.-11 yanvar.-S.11.

# DOSTUM SEYFƏDDİN HAQQINDA

Seyfəddin müəllimi ilk tanıdığım vaxtdan (təxminən, 20 il əvvəl) onun sərrast nitqinə, danışığına valeh olmuş, sevmişəm. Klas-sik poeziya, aşıq sənətinə dərindən bələd olan gənc alim, ilk tanışlığımızdan yəqin etmişəm ki, muğamlarımız, xalq mahnılarımızın da gözəl bilicisidir. S.Ə.Şirvani yubileyində və Şamaxıda keçirilən Sabir poeziya günlərində etdiyi dərin çıxışlarından tanıyıram. Ona görə də onun iştirak etdiyi məclislərdə yəqin etmişəm ki, "xaltura etmək" çox çətindir. Şamaxıda muğam sənətini bilən, sevən bir çox kəndlər – Quşçu, Cəyirli, Çarhan, Göylər, Poladlı və s. vardır. Burada olan çox toylarda məclisin ağsaqqalı Seyfəddin müəllimi görmüşəm, elminə, sənəti, əruzu bilməsinə bələd olmuşam. Bir qədər də dəqiq desək, Seyfəddin müəllimin yanında Şirvanilərin – Xaqani, Nəsimi, S.Ə.Şirvani, Ə.Vahidin və b. qəzəllərini yanlış ifa etmək nə qədər xəta sayılırsa, muğamlarımızın şöbə və guşələrini yerli-yerində ifa etməmək bir o qədər bağışlanmazdır... Şamaxının kəndlərinə toya gedəndə Seyfəddin müəllimi görəndə sevinərdim. Sevinərdim ki, məclisimiz əsl poeziya və muğam məclisi olacaqdır. Ona görə də çox zaman Şamaxıdakı məclislərə muğamımızın bilici ağsaqqalı, gözəl tarzən, ustad Bəhram əmi ilə gedərdim. O da yaxşı tanı-yırdı Seyfəddin müəllimi. Həmişə müəllimi görəndə mənə pıçıldayardı: – Bu gün yenə Seyid, Sabir dünyasını yaşayacağıq... Məclis boyu Seyfəddinin özünəməxsus xüsusi ahənglə, Bəhram əmimin müşayiəti ilə söylədiyi çeşid-çeşid qəzəllər məclis əhlinə mənim oxumalarımdan da çox ləzzət verərdi... Dostluğumuz isə ilbəil artırdı. Lap qardaş kimiyik... İndinin özündə də... Öpürəm Hacı qardaşımı...



***Canəli ƏKBƏROV,***
***Xalq artisti***